Azərbaycan Respublikasının
Prezidenti yanında
Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Agentliyi

# BMT-nin ƏRZAQ və KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ (FAO) ƏRZAQ QİYMƏTLƏRİNİN İNDEKSİ

21 avqust 2026

# ÜMUMİ MƏLUMAT

- FAO Ərzaq Qiymətləri İndeksi (FFPI) 2026-ci ilin iyul ayında orta hesabla **131.1-ə** bərabər olmuşdur. Bununla da ərzaq qiymətləri indeksi iyun ayı ilə müqayisədə **0.6%** və ötən ilin müvafiq dövrü ilə müqayisədə isə **1.0% artıb**.
- Son qiymət artımının əsas səbəbləri:
  - ✓ Taxıl ,
  - ✓ Şəkər ,
  - ✓ Bitki yağı məhsulları üzrə qiymət artımıdır.




*Qeyd*: 2026-ci ilin yanvar - iyul ayları üzrə

# TAXIL MƏHSULLARI (DƏNLİ BİTKİLƏR)

- Taxıl məhsullarının Qiymət İndeksi iyul ayında orta hesabla **113.8 bənd** təşkil edib:
  - iyun ayına nisbətən **3.8 bənd (3.4%) artıb;**
  - ötən ilin müvafiq dövrü ilə müqayisədə **7.3 bənd (6.9%) artıb.**
- Taxıl məhsullarının qiymət indeksinin **artmasının** əsas səbəbləri:
  - ✓ Qara dənizdə ixrac axınlarının davamlı pozulması ilə bağlı buğda qiymətinin artması;
  - ✓ ABŞ-ın bəzi ərazilərində isti və quru hava şəraiti, həmçinin enerji bazarlarında qiymətlərin yüksəlməsi fonunda qarğıdalı qiymətinin artması.



# BİTKİ YAĞLARI



- Bitki yağı Qiymətləri İndeksi iyul ayında orta hesabla **195.7 bənd** təşkil edib:
  - ✓ iyun ayına nisbətən **3.7 bənd (2.0 %) artıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **28.9 bənd (17.3%) artıb.**
- Bitki yağları qiymət indeksinin **artmasının** əsas səbəbləri:
  - ✓ İndoneziyanın biodizel sektorunda palma yağına olan güclü tələbin davam etməsi, həmçinin xam neft qiymətlərinin yüksəlməsi ilə palma yağı qiymətlərinin artması;
  - ✓ ABŞ-da soya yağı üçün xammala olan davamlı yüksək tələb fonunda soya yağı qiymətlərinin artması;



# ƏT MƏHSULLARI

- Ət Qiyməti İndeksi iyul ayında orta hesabla **127.7 bənd** təşkil edib:
  - ✓ iyun ayına müqayisədə **3.6 bənd (2.7%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **0.5 bənd (0.4%) artıb.**

- Ət məhsulları qiymət indeksinin **azalmasının** əsas səbəbləri:
  - ✓ Braziliyada quş əti ixrac təklifinin bol olması ilə beynəlxalq quş əti qiymətlərinin azalması;
  - ✓ Avropa Birliyində bol tədarük və qlobal tələbatın azalması səbəbindən donuz əti qiymətlərində azalma;
  - ✓ Asiyadan idxal tələbinin zəifləməsi fonunda iribuynuzlu mal əti qiymətlərinin azalması.



# SÜD MƏHSULLARI

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi

- Süd məhsullarının Qiymətləri İndeksi iyul ayında orta hesabla **116.2 bənd** təşkil edib:
  - ✓ iyun ayı ilə müqayisədə **0.8 bənd (0.7%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **38.4 bənd (24.8%) azalıb.**
- Süd məhsullarının qiymət indeksinin **azalmasının** əsas səbəbləri:
  - ✓ Süd yağının mövcudluğunun yaxşılaşması kərə yağı bazarında təklif məhdudiyyətlərini azaldaraq qiymətlərin azalması;
  - ✓ Avropa İttifaqı və Okeaniyada yağsız süd tozunun ixrac təklifinin artması fonunda süd məhsulları qiymətinin azalması.



# ŞƏKƏR



- Şəkər Qiymət İndeksi iyul ayında orta hesabla **95.0 bənd** təşkil edib:
  - ✓ iyun ayına nisbətən **5.0 bənd (5.6 faiz) artıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **8.3 bənd (8.0%) azalıb.**

- Şəkər məhsulları üzrə qiymət indeksinin **artmasının** əsas səbəbləri:
  - ✓ Avropa İttifaqında davamlı isti və quraq hava şəraitinin məhsuldarlığa mənfi təsir göstərəcəyi ilə bağlı narahatlıqlar səbəbilə şəkər qiymətlərinin artması;
  - ✓ Benzində məcburi etanol qarışığının müvəqqəti artmasından sonra yüksək etanol qarışığı tələbi şəkər qamışının daha böyük bir hissəsini etanol istehsalına yönəltdiyi və şəkərin mövcudluğunu azaltdığı üçün qiymətlərin artması.



Azərbaycan, Bakı, AZ1000, Səbail r., Ü.Hacıbəyov k., 84,
Hökumət Evi, 7-ci qapı
Tel.: (+994 12) 599 76 00, Faks: (+994 12) 497 24 08
E-mail: office@competition.gov.az
www.competition.gov.az